MİR CƏLAL PAŞAYEVİN ELMİ-NƏZƏRİ İRSİ

Mir Cəlal müəllim xatirələrində yazır ki, onlarla bir küçədə yaşayan Cavid Əfəndi yorğun və incik vaxtlarında özünə həm yaradıcılıq söhbətləri etmək, həm də narazılıq və incikliyini bölüşmək üçün həmsöhbət axtardığı axşamlarda tez-tez onlara da qonaq gəlirmiş. Ədib yazır ki, o, söhbət əsnasında yazı masama da nəzər yetirər, nə yazdığım ilə maraqlanardı. Bir gün şairlərin kitablarını oxuduğumu, onlar haqqında ümumi səpkidə məqalə yazmaq istədiyimi biləndə mənə fikir bildirmək üçün daha mühüm məsələlərə üz tutmağımı tövsiyə etdi: "Mülahizə deməli daha vacib əsərlər var, elə əsərləri təhlil elə ki, heç olmasa, mövzu sənin zəhmətini qoruyub saxlasın. Füzulidən yazanı, yazı özü saxlamasa da, Füzuli saxlayacaq".

Cavid Əfəndinin tövsiyələrini qəbul edən Mir Cəlal Paşayev Füzulinin poetikasını, sənətkarlığını öyrənməyə, tədqiq etməyə başlayır. Amma ona görə yox ki, alim Mir Cəlal Füzuli sözünün böyüklüyünə sığınmaq istəmişdi. Ona görə ki, irfana və elmə, əqlin və mənəviyyatın gücünə söykənən Azərbaycan poeziyasının, Şərq poetikasının sirlərini öyrənməklə çağdaş ədəbi prosesə, öz qələm dostlarının yaradıcılığına həmin kriteriyalarla yanaşmaqla çoxəsrlik Azərbaycan ədəbiyyatının zəngin ənənələrini, sözün əsrlərdir sahib olduğu enerjini qorumaq istəmişdi. Və sonralar Mir Cəlal müəllimin tələbələri bu gün də Füzulişünaslığın uğuru sayılan "Füzulinin poetikası" əsəri haqqında deyirdilər: bu tədqiqatdan sonra Füzulinin şair kimi, Mir Cəlal müəllimin alim kimi böyüklüyünün şahidi olduq (Ağamusa Axundov). Digər tələbəsi Abdulla Abbasov isə həmin əsəri Füzulişünaslıqda ilk kamil mənbə, istinadgah adlandırır. Klassik ədəbiyyatı tədris edən Həmid Araslı isə bu əsəri tələbələrinə tövsiyə etdiyi ədəbiyyat siyahısının əvvəlində yazdırar, "Bu kitabsız Füzulini başa düşməzsiz" - deyərdi ki, bu da zənnimizcə, alimin yaradıcılığı üçün deyilmiş ən yüksək fikirdir.

Yaradıcılığı çoxəsrli Azərbaycan ədəbi-bədii, ədəbi-elmi silsilənin məntiqi uyarlığını tamamlayan Mir Cəlal müəllim yazıçı kimi Azərbaycan ədəbiyyatının yaradıcılarından biri, ədəbiyyatşünas alim kimi tədqiqatçısı, pedaqoq kimi tədrisi ilə məşğul olmaqla o silsilənin davamına çevrilmişdir və bu gün XXI əsrin meyarları səviyyəsindən baxanda o özü də klassik kimi zirvədə görünür.

Mir Cəlal müəllim bütünlükdə Azərbaycan ədəbiyyatının tarixinə, onun müxtəlif dövrlərinə, ədəbi-nəzəri fikrin problemlərinə aid yüzlərlə elmi məqalənin, "Füzulinin sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında", "Xalq şairi Səməd Vurğun", "Klassiklər və müasirlər", "Yeni şeirin manifesti", "Gülüş bədii silah kimi", "Azərbaycanda ədəbi məktəblər", "XX əsr Azərbaycan ədəbiyyatı tarixi", "Ədəbiyyatşünaslığın əsasları" kimi monoqrafiya, kitab və dərsliklərin müəllifidir.

O, ədəbiyyatşünaslığın hər üç sahəsi: istər ədəbiyyat tarixi, istər ədəbiyyat nəzəriyyəsi, istərsə də ədəbi tənqidlə eyni səviyyədə məşğul olmuşdur.

"Füzuli qəzəllərinin poetik xüsusiyyətləri", "Füzuli əsərlərinin bədii dili", "Füzuli şeirində peyzaj", "Füzuli poeziyasında bədii və elmi məntiq", Nizami irsinə həsr olunmuş "Yeddi gözəl" haqqında", "Məhəbbət dastanı", "Nizaminin müsbət obrazları", "Əsrlərdən gələn dostluq səsi" məqalələri, həmçinin M.P.Vaqif, M.F.Axundov, M.Ə.Sabir, Ə.Haqverdiyev haqqındakı çoxsaylı tədqiqatları təkcə bu ədəbi şəxsiyyətlərin yaradıcılığına müxtəlif yöndən işıq saldığına görə yox, özündən sonrakı ədəbiyyatşünaslar üçün, tələbələri üçün alimin bir tədqiqatçılıq məktəbi yaratdığı, bir örnək sərgilədiyi üçün qiymətli irsdir.

Mir Cəlal müəllimin həm klassiklər haqqındakı tədqiqatları, həm ədəbiyyat nəzəriyyəsinin müxtəlif problemləri, ədəbi üslub və cərəyanlar haqqındakı nəzəri fikirləri, müasirlərinin yaradıcılığına dair mülahizələri, tövsiyələri ona görə etibarlı, obyektiv və əsaslı idi ki, o həm də yazıçı idi. O, yaradıcılıq prosesinin bütün incə və sirli məqamlarına yaxın bələd olduğuna görə ədəbiyyat haqqında, onun estetikası haqqında bu gün də, sabah da istinad olunacaq dəyərli fikirlər söyləmişdir.

Mir Cəlalın 1905-1917-ci illəri əhatə edən "Azərbaycanda ədəbi məktəblər" əsəri XX əsrin ədəbi mühitini, həmin illərin ədəbi proses və mərhələlərini öyrənmək, bütövlükdə əsrin inkişaf xətləri və meyillərini təyin etmək baxımından xüsusi əhəmiyyətə malikdir. Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Nəriman Nərimanov, Ə.Qəmküsar, Firudun bəy Köçərli, A.Divanbəyoğlu, Abdulla Şaiq, Sultan Məcid və digər sənətkarları tədqiqata cəlb etməklə əksəriyyəti haqqında ilk fikirlər demişdir. Böyük bir hissəsi İkinci Dünya müharibəsi zamanı yazılan "Azərbaycanda ədəbi məktəblər" doktorluq dissertasiyasının müqəddiməsində ədib bu əsərin asanlıqla yazılmadığını vurğulayır, həyat və yaradıcılıqları tədqiqata cəlb olunan müəlliflərin irsinin, bir çox mənbələrin əldə edilməsi ilə bağlı üzləşdiyi çətinlikləri xatırlayır, qəhrəman döyüşçülərin ön cəbhədə vətən və bəşər mədəniyyətini qoruduqları zamanda arxa cəbhədə həmin abidələri başqa bir aspektdən qorumağından fəxarət duyurdu.

"Bədii yaradıcılıq işi də elm kimi ciddi tədqiqat tələb edir" - deyən Mir Cəlal bütün müasirlərinin yaradıcılığına bu prizmadan yanaşır, mətndə yazıçı istedadı, yaradıcı təfəkkürlə yanaşı, həm də həyat həqiqəti görmək istəyirdi.

Şair və ədiblər təhsilli, savadlı olmalıdır - deyəndə təkcə məktəb təhsilini, diplomu yox, həm də həyat dərsini, kamillik dərsini nəzərdə tuturdu, məktəb partasından birbaşa Yazıçılar Birliyinin vəsiqəsinə yiyələnməyə etiraz edirdi. Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", "Komsomol poeması" kimi əsərlərinin, Mirzə İbrahimovun Cənubda azadlıq hərəkatından bəhs edən "Gələcək gün", Əbülhəsənin cəbhə həyatını əks etdirən "Müharibə", Mehdi Hüseynin "Abşeron" və "Səhər" romanlarının, Cabbarlının bütöv yaradıcılığının, Süleyman Rəhimovun canlı lövhələr, real çarpışmalar yaratmasının səbəbini o müəlliflərin məhz həyatı dərindən bilmələri, xalqın mübarizə tarixinə, adət-ənənəsinə, zəngin və bədii dilinə, həyat tərzinə dərindən bələd olmaları ilə izah edirdi. Ədəbiyyata gələn gənclərin yaradıcılığına yüksək tələbkarlıqla yanaşan ədəbiyyatşünas alim onlara həm klassik irsi, həm dünya ədəbiyyatının zəngin təcrübəsini öyrənməyi tövsiyə edirdi. Sadəcə ədib, dramaturq, şair olmağı deyil, işinin sənətkarı olmağı məsləhət görürdü. "Ədəbiyyatda "bulanıq axın" deyilən yazılara oxucu dözmür, yaxşı eləyir ki, dözmür" - deyən yazıçı gənc ədəbi nəslin yaradıcılığına öz əsərlərinə tələbkar olduğu qədər prinsipiallıqla yanaşırdı.

Nikolay Ostrovskinin "Yazıçı böyük hərflə yazılan adam olmaq, müəllim olmaq deməkdir" - sözlərini xatırladır, uzun axtarışların, zəhmətin nəticəsi olan əsərlərin oxucunun dünyagörüşündə, bədii-estetik zövqünün formalaşmasında ən azı müəllim qədər rol oynadığını diqqətə çatdırırdı.

Klassik nəsrin əsas janrı hesab etdiyi hekayə haqqında ədibin maraqlı fikirləri var. Mir Cəlala görə, yaxşı, ustalıqla yazılmış hekayəni oxucuya tək, əlavə yüksüz təqdim etmək lazımdır. Ədib bununla sanki oxucuyla müəllifi o hekayənin mətləbi, ideyası, sənətkarlığı və ümumilikdə enerjisi ilə baş-başa qoymaq istəyirdi. Bəzən ya eyni müəllifə, yaxud müxtəlif yazıçılara aid 50-60 hekayənin bir yerdə dərc edilib oxucunun, ədəbi ictimaiyyətin ixtiyarına verilməsini məqbul hesab etmirdi. "Nə üçün "Usta Zeynal", "Şeyx Şaban", "Qurbanəli bəy" müstəqil yaşayırdı, amma "Su ərizəsi", "Hop-hop", "Şəhərdən gələn ovçu", "Buz heykəl", "Atəş oğlu", "Şirin bülbül", "Xəzan yarpaqları", "Arabaçı" yaşamasın?" Və bəzən tənqidçilərin də o hekayələri fərdi yanaşma ilə yox, "topdan təhlil" etməsinə etiraz edir, belə münasibəti hekayə janrına etinasızlıq kimi dəyərləndirirdi. Halbuki hekayəni həm ədəbiyyatın inkişafındakı roluna, həm oxucuya bədii informasiyanı daha çevik ötürdüyünə görə vacib janr hesab edirdi.

Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, Sabit Rəhman, Əli Vəliyev, Salam Qədirzadə, Ələviyyə Babayeva və Mikayıl Rzaquluzadənin hekayə janrına müraciətlərini fədakarlıq kimi qiymətləndirirdi.

Əsərin dilindən sadəlik və təbiilik, xalq dilindən gələn şirinlik, rəngarəng ifadələr, müxtəlif ədalı ibarələr, bədii suallar, bədii təkrirlər tələb edən yazıçı bütün bunları bədii ustalığın şərtləri kimi vurğulayır, əsərin ideyasının anlaşılmasında hər kəlmənin, hər vurğunun öz yeri olduğunu deyirdi. Qələm yoldaşlarının yaradıcılığına yüksək tələbkarlıqla yanaşan ədib güclü müşahidə bacarığı olan Əbülhəsənin əsərlərinin dilini dolaşıq və ağır hesab edir, istedadlı şair Məmməd Rahim, Süleyman Rüstəm, Əhməd Cəmilin belə bəzən şeirlərində uğursuz, yad ifadələrin işləndiyini nümunələrlə göstərir və tövsiyələrini edirdi. Ədibin tələbəsi Pənah Xəlilov müasirlərinin bu tənqidi fikirlərə münasibəti haqqında yazırdı: Mir Cəlal müəllimin obyektivliyi elə meyar idi ki, onun tənqidindən inciyən olmurdu.

Tənqidlə məşğul olanlardan "mədəni - ədəbi səviyyə", "müəyyənləşmiş zövq" və cəsarət tələb edirdi. Ədəbi-tənqidi məqalələrdən elmi təfəkkür, analizlə yanaşı, ədəbi-bədii ruh da tələb edən yazıçı bu barədə yazırdı: "Bir sıra ədəbi-tənqidi məqalələri oxuyanda bir kolxoz, zavod, tikinti trestinin hesabat planı haqqında və ya bədii əsər haqqında söhbət getdiyini seçmək çətin olur. Məqalələrimizdə sənətkarlıq məsələləri, sənətin xüsusiyyəti, varlığı şairanə, bədii lövhələrlə duyub düşünmək zərurəti haqqında elmi mühakimə və nəzəri mülahizələr ya olmur, ya da çox az olur".

Bəzən də tənqidçini oxucunun istəyini düşünmədiyini, onu yox, müəllifi razı salmağa çalışdığını, əsər haqqında nə yazıçıya, nə oxucusuna faydası olmayan təntənəli fikirlər söyləməkdə qınayırdı.

Mir Cəlal müəllim müxtəlif sənət məsələlərinə dair konseptual fikirlər yürütməklə, klassiklər haqqında tədqiqatlar aparmaqla yanaşı, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mirzə İbrahimov, Osman Sarıvəlli, Səməd Mənsur kimi müasirlərinin və gənc ədəbi nəslin nümayəndələri Əli Kərim, Bəxtiyar Vahabzadə, Musa Yaqub, Nəbi Xəzri, Xəlil Rzanın əsərləri haqqında da obyektiv, istiqamətverici yüksək nəzəri təhlil xarakterli mülahizələr söyləmişdir.

Elə bir sənət müzakirəsi, elə bir mübahisə doğuran ədəbi məqam yox idi ki, Mir Cəlal müəllim ondan danışanda Səməd Vurğun yaradıcılığını nümunə göstərməsin. O deyirdi: "Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur.

Elə bir ədəbi məsələ, müzakirə olmaz ki, orada Səmədin rəyi və fikri hesaba alınmasın".

Səməd Vurğun kimi müasiri, qələm dostu haqqında belə dəyərli sözləri ürəyiaçıqlıqla söyləmək - "O hər bir ailədə atadan, anadan əziz bir sima kimi sevilən xoşbəxt sənətkardır" - deyə etiraf etmək Mir Cəlal müəllim kimi geniş qəlbli şəxsiyyətlərə xas keyfiyyət idi.

"Vaqif" dramını Vurğun şeirinin ən yüksək nümunəsi kimi qiymətləndirir, həm əhatə etdiyi məsələlərə, həm şeiriyyətinə görə "Vaqif"i Azərbaycan ədəbiyyatında müstəsna şöhrət qazanmış əsər kimi dəyərləndirərək yazırdı: "Mirzə Cəlilin "Anamın kitabı"ndan, Cabbarlının "Od gəlini"ndən sonra xalq taleyi və istiqlaliyyəti uğrunda gedən mübarizəni xüsusi bir qüdrətlə əks etdirən və bu yolda kütlələri səfərbərliyə ala bilən ən böyük əsər hələ ki, "Vaqif"dir". Əsər Mir Cəlal müəllim üçün ona görə dəyər kəsb edirdi ki, xalqın istək və arzusu, duyğu və düşüncəsi böyük bir şəxsiyyətin, sənətkarın simasında əks olunurdu. Mir Cəlal qeyd edir ki, Vurğunun əsərləri tarixi mənalandırmaqda, onu düzgün dərk etməkdə, baş verən ictimai proseslərin sirlərini açmaqda oxucunun və tamaşaçının yoluna işıq tutur.

Səməd Vurğunun "Komsomol poeması"nın təhlilini verən mövcud tədqiqatlarda bədii təhlildən, nəzəri məsələlərdən çox ictimai təhlillərə üstünlük verildiyini və bunun da ədəbiyyatşünaslıqda yanlış yanaşmalara və nəticələrə gətirib çıxardığını, bir çox ədəbi məsələlərin - bədii şəkil, üslub yenilikləri, şeir texnikası, vəzn məsələsinin kölgədə qaldığını deyən Mir Cəlal müəllim şairin yaradıcılığına məhz bu aspektdən yanaşır, onun adıçəkilən poemasını müxtəlif kontekstdən təhlilə cəlb edirdi. Bu əsərin Azərbaycan ədəbiyyatında özündən əvvəl və sonra yazılan poemalar içində tutduğu mövqeyi şərh edir, müəllifin 25 il əsər üzərində işləməsinə, dönə-dönə qayıtmasına baxmayaraq, tamamlaya bilməməsini bu poemada baş verən hadisələrə xüsusi həssaslıqla yanaşması kimi qiymətləndirirdi. Qeyd edirdi ki, əsərdə cərəyan edən hadisələrin həm məkan, həm də zaman etibarı ilə şairə doğma və məhrəm olması onu bu əsərə tələbkarlıqla yanaşmağa sövq etmişdir. Həm şairin gənclik illərinin yaddaşına müraciəti kimi, həm də böyüyüb boya-başa çatdığı kəndin doğma koloritinə ehtiramı kimi izah edirdi. "Əsəri uzun illər boyu bitirməməsinin əsas bir səbəbi, bəlkə də bu idi ki, şair götürdüyü süjetə, yaratdığı aləmə daha çox bədii rahiyə və rəng vermək, həm də daha çox həyat materialı, hadisə və təfsilatı əhatə etmək istəyirdi. Bu cəhətdən də əsər, yaranmış poemaların çoxundan (S.Rüstəm, M.Müşfiq, A.Faruk və başqalarının əsərlərindən) fərqlənirdi. Komsomol həyatı burada əsas alınırdı, ancaq məhdud götürülmürdü. Müasir kənd öz mürəkkəb, əlvan, ziddiyyətli səhnələri, işıqlı və kölgəli cəhətləri ilə üzvi əlaqədə canlandırılırdı". Mir Cəlal müəllim sözügedən əsərdə dərin və zəngin ümumiləşdirmələrlə təbii və inandırıcı fərdiləşdirmənin ahəngdarlığını da xüsusi vurğulayırdı. Vurğunun obrazlarının böyük xarakter kimi görünmələrinin səbəbini şairin həyat həqiqətlərinə öz ülvi ideyalarını qatmasında, gerçək həyatdan götürdüyü qəhrəmanlarına yaradıcı nüfuz etməsində görürdü.

Mehdi Hüseynin ədəbiyyatın, xüsusilə bədii nəsrin inkişafındakı rolunu xüsusi qiymətləndirir, onun sadə insanların təkcə şəxsi həyatını deyil, ictimai taleyini, vətəndaşlıq bioqrafiyasını önə çəkdiyini yüksək qiymətləndirirdi. Mehdi Hüseynin üslubunda Axundovun, Nərimanovun, yaxud Fadayevin dəst-xəttini axtaranlara etiraz edir, onun üslubunu həm klassik ənənələri, həm də müasir ədəbiyyatın ictimai həyatla bağlılığından qaynaqlanan müsbət keyfiyyətlərini birləşdirən özünəməxsus üslub hesab edirdi. Yazıçının istər şəhər, istərsə də kənd həyatından yazarkən ədəbiyyatın ideallarına sadiq qaldığını göstərir və bunu təkcə onun savadı və biliyi ilə deyil, bədii məntiqinin gücü, yazıçı mədəniyyəti, dil və fikir aydınlığı ilə izah edirdi. Mehdi Hüseynin təkcə nəsr yaradıcılığı haqda deyil, səhnə əsərlərinə də münasibət bildirir, eyni zamanda onu istedadlı ədəbiyyatşünas adlandırırdı. Onun müxtəlif ədəbiyyat məsələləri haqqındakı elmi mühakimələrə, analizə söykənən və həm də oxunaqlı olan nəzəri irsinə də münasibət bildirir, elmi-tənqidi mülahizələrini dəyərli alim fikri hesab edirdi. Mir Cəlal müəllimə görə, Mehdi Hüseyn gündəlik işində də, yaradıcılıq masasının arxasında da, mətbuat səhifələrində də, ölkə xaricində ədəbiyyat kürsüsünə qalxanda da ədəbiyyatın və sənətin ideallarına sadiq qalan yazıçı idi.

Mehdi Hüseyn haqqında dediyi sözləri Mir Cəlal Paşayevin özünün də haqqında deyə bilərik. Mir Cəlal müəllim mənzilində masa arxasında da, universitetdə auditoriyada da, mötəbər yığıncaqlarda da ədəbiyyatın ideallarına sadiq qalan şəxsiyyət olduğuna görə həm tələbələrinin, həm ədəbiyyat sərraflarının, həm də doğma xalqının yaddaşında əbədi iz qoymuşdur. ■

Aygün BAĞIRLI,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru.